BAKI
SLAVYAN
ÜNİVERSİTETİ

MƏLUMAT KITABÇASI

Slavyanşünaslıq üzrə regionun birinci universiteti

BAKI SLAVYAN UNİVERSİTETİ

Slavyanşünaslıq üzrə regionun birinci universiteti

GƏLƏCƏYİN BAKI SLAVYAN UNİVERSİTETİNDƏN BAŞLAYIR!

umumi@bsu-uni.edu.az

(+994 12) 599-08-70

Bakı şəh., S.Rüstəm küç. 33

BAKI
SLAVYAN
UNİVERSİTETİ

MÜNDƏRİCAT

Bakı Slavyan Universiteti haqqında məlumat 2
Bolonya sistemi haqqında məlumat..... 4
Tələbənin hüquq və vəzifələri 6
Tələbənin bilməli olduğu əsas anlayışlar 7
Akademik məsləhətçi-Tyutor kimdir? 9
Tədris prosesinin təşkili 11
Akademik borcları ləğv etmək üçün tələbə nəyi bilməlidir?..... 15
Təhsil haqqı ödənişləri barədə nəyi bilməliyəm? 17
İmtahan prosesi və qiymətləndirmə 18
Diqqət!..... 19
İmtahan nəticələri 20
Təqaüdlərin verilmə qaydaları 21
Yay semestri..... 22
Təcrübə işinin təşkili vəziyyəti 24

Slavyanşünaslıq üzrə regionun birinci universiteti

BAKI
SLAVYAN
UNİVERSİTETİ

BAKI SLAVYAN UNİVERSİTETİ HAQQINDA MƏLUMAT

Bakı Slavyan Universiteti Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli fərmanı ilə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun bazası genişləndirməklə yaradılmışdır. Şərqi və Qərbi Avropa dillərinin, ədəbiyyatının, mədəniyyətinin, coğrafiyasının, tarixinin, siyasətinin öyrənilməsində ixtisaslaşan universitetdə türk, çex, ingilis, rus, alman, bolqar, ukrayna, yunan, fransız dilləri və ədəbiyyatı üzrə müəllimlər, filoloqlar, tərcüməçilər, diplomatlar, jurnalistlər, eləcə də bu ölkələrin beynəlxalq münasibətləri, mədəniyyəti, coğrafiyası, tarixi üzrə mütəxəssislər hazırlanır. Bu gün Bakı Slavyan Universitetində 5 fakültə, 23 kafedra, 552 nəfər professor-müəllim heyəti fəaliyyət göstərir. Onlardan 38 nəfəri elmlər doktoru, 22 nəfəri professor, 139 nəfəri dosent, 202 nəfəri baş müəllim, 173 nəfəri isə müəllimdir.

BAKI SLAVYAN UNİVERSİTETİ HAQQINDA QISA MƏLUMAT

Bakı Slavyan Universitetinin ümumi tələbə kontingenti 5592 nəfərdir. Bakalavriat səviyyəsində 5218 nəfər, magistratura səviyyəsində 294 nəfər, doktorantura səviyyəsində 74 nəfər, əlavə təhsil üzrə isə 80 nəfərdir. Təhsilalanların 153 nəfərini əcnəbi vətəndaşlar təşkil edir. Bakalavr səviyyəsində 14 ixtisas və 35 ixtisaslaşma, magistratura səviyyəsində isə 14 ixtisas və 51 ixtisaslaşma üzrə tədris aparılır. Bakı Slavyan Univeritetində ümumilikdə 5 fakültə fəaliyyət göstərir:

- Xarici dil müəllimliyi fakültəsi
- Filologiya fakültəsi
- Təhsil fakültəsi
- Sosial elmlər və Regionşünaslıq fakültəsi
- Şərqi Avropa və Balkanşünaslıq fakültəsi

BAKI SLAVYAN UNİVERSİTETİ

Bizimlə əlaqə:

+994 (12) 599-08-70

umumi@bsu-uni.edu.az

BOLONYA SİSTEMİ HAQQINDA MƏLUMAT

Bolonya prosesinin əsas məqsədlərindən biri Avropada vahid ali təhsil məkanının yaradılmasıdır. 1998-ci il may ayının 25-də Fransada Paris Universitetinin 800 illiyinə həsr olunmuş konfransda Böyük Britaniya, Almaniya, İtaliya və Fransanın təhsil nazirləri tərəfindən "Avropada ali təhsil sisteminin uyğunlaşdırılması haqqında"Sorbonna Bəyannaməsinin qəbul edilməsi ilə bu prosesə başlanılmışdır. Qeyd edilən bəyannamə, təhsil sənədlərinin tanınması prosesinin təkmilləşdirilməsinə, təhsilalanların mobilliyinin, məzunların işədüzəlmə imkanlarının genişləndirilməsinə yönəlmiş ümumi sistemin yaradılmasını dəstəkləyir.

BOLONYA SİSTEMİ HAQQINDA MƏLUMAT

Ümumilikdə Avropa Şurasının üzvü olan 45 ölkə Bolonya prosesinə rəsmi formada qoşulmuşdur. Azərbaycan Bolonya prosesinə 2005-ci il may ayının 19-da Bolonya Bəyannaməsini imzalamaqla qoşulmuşdur.

Bolonya Bəyannaməsi üzvlüyə qəbul olan dövlətlərin hamısı üçün tətbiqi zəruri olan aşağıdakı prinsiplərin həyata keçirilməsini nəzərdə tutur:

– İkipilləli ali təhsilə keçid;
– Kredit sisteminin tətbiqi;
– Tələbə və müəllim mobilliyinin genişləndirilməsi;
– İxtisasların və diplomların qarşılıqlı tanınması;
– Diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılması;
– Məzunların işlə təminatına nail olunması.

BAKI SLAVYAN UNİVERSİTETİ

BAKI SLAVYAN ÜNİVERSİTETİ

TƏLƏBƏNİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

1. Tələbələr ali təhsil müəssisəsində kredit sisteminin tətbiqi ilə bağlı qaydalarla və tədris prosesinin təşkili barədə normativ sənədlərlə tanış olmaq hüququna malikdirlər.
2. Tələbə akademik borcu olduğu fənni ödənişli əsaslarla istənilən qədər dinləyə bilər.
3. Təhsil zamanı tələbə fərdi tədris planına ciddi riayət etməklə tədris olunan fənləri mənimsəyə bilər.
4. Tələbə öz akademik transkriptini ali təhsil müəssisəsindən təhsil aldığı dövrdə istənilən vaxt əldə edə bilər.
5. Tələbələr fərdi tədris planlarını müəyyənləşdirərək Nazirlər Kabinetinin 348 saylı 24 dekabr 2013-cü il qərarı ilə təsdiq edilmiş Qaydalara riayət etməlidirlər.
6. Tələbə ali təhsil müəssisəsinin daxili intizam qaydalarını pozduğu halda ona müvafiq qaydada intizam tənbehi tədbirləri tətbiq edilir.

TƏLƏBƏNİN BİLMƏLİ OLDUĞU ƏSAS ANLAYIŞLAR

Təhsil krediti	İxtisasın (ixtisaslaşmanın) tədris planı
İxtisasın (ixtisaslaşmanın) tədris qrafiki	Tələbənin fərdi tədris planı
İxtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı	Yay semestri
Tələbənin sərbəst işi	Akademik məsləhətçi (tyutor)
Akademik mobillik	Prerekvizit fənlər
Akademik transkript	Fənlər üzrə qeydiyyat
Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)	Akademik təqvim

TƏLƏBƏNİN BİLMƏLİ OLDUĞU ƏSAS ANLAYIŞLAR

Müvəffəqiyyətlə təhsil alan tələbə

Aralıq qiymətləndirmə

Akademik borcu olan tələbə

Sillabus

Cari qiymətləndirmə



AKADEMİK MƏSLƏHƏTÇİ – TYUTOR KİMDİR?

Ali təhsil sistemində aparılan islahatların tələbələrinə uyğun olaraq, kredit sistemi ilə tədrisin təşkili üçün yeni idarəetmə metodlarından istifadə etməklə ali təhsil sistemində yeni idarəetmə mexanizmlərinin tətbiqinə ehtiyac yaranmışdır. Bu səbəbdən, kredit sistemi ilə təhsil alan tələbələrə akademik kömək, həmçinin tələbələrlə universitet rəhbərliyinin daha sıx və mobil əlaqəsini təmin etmək məqsədilə akademik məsləhətçi xidmətinin təşkili vacibdir. Bununla əlaqədar olaraq, 833-IIIQ saylı Azərbaycan Respublikasının Təhsil haqqında Qanununa əsasən, tələbə universitetə qəbul olduğu zamandan etibarən tədris illəri üzrə yönləndirilməsi üçün ona 1 nəfər akademik məsləhətçi təhkim olunur.



AKADEMİK MƏSLƏHƏTÇİ – TYUTOR KİMDİR?

Akademik məsləhətçi tələbələri tədris prosesinin bütün mərhələləri barədə məlumatlandırır, onların akademik maraqlarını qoruyur və müdafiə edir. Belə ki, akademik məsləhətçi universitetinin təhsil sistemi, fərdi tədris planlarının tərtibi, dərs cədvəli, fənləri tədris edəcək müəllimlər barədə məlumat, növbəti tədris illəri üçün seçmə fənlərin seçimi, imtahanların keçirilmə qaydaları, aralıq qiymətləndirmə meyarları, kredit yüklərinin düzgün formada planlaşdırılması, akademik borcu yaranmış tələbələrin borclarını ödəmə qaydaları, dərs jurnallarının yazılması, dərsə davamiyyət barədə zəruri məlumatları tələbə üçün təmin etməlidir. Həmçinin akademik məsləhətçi, universitetdə tədris illəri müddətində tələbələrin akademik performansını izləyir.

TƏDRİS PROSESİNİN TƏŞKİLİ

Bakı Slavyan Universitetində tədris prosesi 833-IIIQ saylı Respublikasının Təhsil haqqında Qanununa uyğun olaraq təşkil olunur. Qanunvericiliyə əsasən tədris ili iki semestrə (payız və yaz) bölünür.

İxtisaslar üzrə tədris edilən fənlər ixtisasın təhsil və tədris planına uyğun olaraq həyata keçirilir. Həmin fənlərin auditoriya və auditoriyadankənar saatları qeyd olunan proqramların tələblərinə uyğun formalaşdırılmışdır. Ümumi saatların miqdarı 330-360 saat, həftəlik dərs yükü 22-23 saat (bəzi hallarda 24 saat) təşkil edir. Auditoriyadankənar saatların miqdarı tədris planına uyğun olaraq müəyyən olunur. (Məsələn, auditoriya saatı 60, auditoriyadankənar saatlar 90 saat, auditoriya saatı 45, auditoriyadankənar saat 75 saat).

Bakalavriat səviyyəsində proqram üzrə tədris olunan fənlərin ümumi krediti 240-dır, bunlardan 150 kredit məcburi, 60 kredit seçmə fənn blokuna və 30 kredit isə təcrübəyə aiddir. I tədris ilinin ikinci yarımilindən etibarən seçmə fənləri də daxil etməklə məcburi fənn blokunda fənlərin prerekvizitliyi və korekvezitliyi gözlənilməklə tədris planları hazırlanır.

TƏLƏBƏ SEMESTR ƏRZİNDƏ NƏZƏRDƏ TUTULAN BALLARI NECƏ TOPLAYA BİLƏR?

- Auditoriya (mühazirə, seminar, praktik məşğələlər, laboratoriyalar) dərslərində iştirak etməklə (30 bal);
- Dərsə davamiyyətlə (10 bal);
- Fənlər üzrə sərbəst işləri təhvil verməklə (10 bal).

TƏDRİS PROSESİNİN TƏŞKİLİ

Tədris planında fənlər vacibliyinə və məzmununun mənimsənilməsi ardıcıllığına görə aşağıdakı 3 qrupa bölünür:

- Məcburi və prerekvizit fənlər üzrə;
- Məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər üzrə;
- Tələbələrin öz seçimi əsasında öyrənilən fənlər üzrə.

TƏDRİS PROSESİNİN TƏŞKİLİ

Müvəffəqiyyətlə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən, akademik borcu olanlar üçün isə ödənişli əsaslarla hər semestrdə cəmi 8 kreditdən çox olmamaq şərtilə fənn (fənlər) seçməyə icazə verilir. Fənn üzrə semestr göstəricilərinə və imtahanların nəticələrinə görə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab edilir. Əks təqdirdə, tələbə bu fəndən kreditləri qazanmır və onun həmin fənn üzrə akademik borcu yaranır. Fənn (fənlər) üzrə akademik borcu yaranmış tələbə həmin fənni (fənləri) yenidən dinləməlidir. Bu zaman tələbə həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir. Tələbə ali təhsil müəssisəsini bitirmək üçün tələb olunan kreditləri ixtisasın normativ təhsil müddətindən sonrakı 3 (üç) ildə (həqiqi hərbi xidmət müddəti nərəzə alınmamaqla) toplaya bilmədiyi halda o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənlərindən əvvəllər qazandığı kreditləri itirir.

AKADEMİK BORCLARI LƏĞV ETMƏK ÜÇÜN TƏLƏBƏ NƏYİ BİLMƏLİDİR?

Akademik borcu olan tələbə fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir. Akademik borc 3 (üç) halda yarana bilər:

1. Tələbə semestr ərzində fənn üzrə ayrılan ümumi auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etmədikdə;
2. Tələbənin semestr ərzində hər hansı fəndən 3 qiyməti olmadıqda;
3. Semestr (cari qiymətləndirmə) və imtahan sessiyası (aralıq qiymətləndirmə) dövründə toplanan ümumi bal minimum həddən (yəni 51 baldan) aşağı olduqda.

AKADEMİK BORCLARI LƏĞV ETMƏK ÜÇÜN TƏLƏBƏ NƏYİ BİLMƏLİDİR?

Cari qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin kreditləri qazanmış hesab olunur. Lakin cari qiymətləndirmənin ümumi nəticələrinə görə qeyri-müvəffəq qiymət almış, eləcə də üzrlü və ya üzrsüz səbəbdən imtahanda iştirak etməmiş tələbə bu fəndən kreditləri qazanmır, yəni həmin fənn üzrə akademik borcu yaranır. Akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə təkrar imtahan vermək və ya fənni yenidən dinləmək üçün şərait yaradılır. Bu halda fənni (fənləri) yenidən dinləmədən qazanmaq istəyən tələbə bu imkandan 4 il ərzində istifadə edə bilər. Kredit borcu olan tələbə hər semestrdə fənni (fənlər) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Üzrlü səbəbdən imtahanda iştirak edə bilməyən tələbə, həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı həmin fənn üçün müəyyən edilmiş təhsil haqqı məbləğinin 25 faizini ödəməklə həyata keçirilir. Digər hallarda akademik borcu yaranan tələbə fənni yenidən dinləməli və həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir.

DİQQƏT

Ödənişli əsaslarla təhsil alan tələbələr təhsil haqqı ödənişlərini semestr başlayana qədər ödəməlidir. Təhsil haqqı ödənişi barədə qəbzin bir nüsxəsi dekanlığa, bir nüsxəsi isə Maliyyə departamentinə təqdim olunmalıdır.

BAKI
SLAVYAN
UNİVERSİTETİ

İMTAHAN PROSESİ VƏ QİYMƏTLƏNDİRMƏ

BSU-da tədris ili üzrə iki dəfə payız və yaz imtahan sessiyası dövründə yekun qiymətləndirmə prosesi mərkəzləşmiş qaydada həyata keçirilir. İmtahan prosesinin başladığı günə qədər imtahan qərargahı və münaqişə komissiyası yaradılır. İmtahan qərargahı və münaqişə komissiyasının əsas funksiyası imtahan sessiyası ərzində daxil olan müraciətlərə eyni zamanda şikayətlərə obyektiv baxılması, imtahan prosesində qarşıya çıxan nöqsanların tərəfsiz və ədalətli yolla həll edilməsidir.
Bundan başqa, imtahanların aparılmasında nizam-intizama, eləcə də onun gedişatına nəzarət etmək məqsədilə sessiya müddətində İmtahan Nəzarət Komissiyası fəaliyyət göstərir.
Fənnin spesifik xüsusiyyətlərini nəzərə alaraq, imtahanlar yazılı və şifahi formada aparılır.

YADDA SAXLA!

İmtahan zamanı tələbələrin istifadə etməsi qadağan olunan vasitələr və davranışlar bunlardır:

- Mobil telefon və digər rabitə vasitələri;
- Qeydlər, köçürmə vərəqləri, kitab, dəftər və başqa vasitələr;
- Gel, karandaş və rəngli qələmlər;
- Elektron hesablama cihazları;
- Qulaqlıq, smart saat və oxşar texniki vasitələr;
- Başqa tələbə ilə danışmaq, işarə ilə əlaqə saxlamaq və ya köçürmək.

İMTAHAN NƏTİCƏLƏRİ

İmtahan nəticələri imtahan verilən gündən 3 iş günü müddətində elan edilir. Tələbə, imtahan nəticəsi ilə razılaşmadığı halda, müvafiq qaydalara uyğun olaraq etiraz etmək hüququna malikdir. Əldə edilən nəticəyə etiraz edən tələbə yazılı ərizə ilə universitetdə fəaliyyət göstərən münaqişə komissiyasına müraciət edə bilər. Ərizə yalnız ilkin yoxlamanın nəticələri barədə tələbənin obyektiv və əsaslandırılmış iddiası olduğu halda komissiya tərəfindən qəbul edilir və münaqişə komissiyasının üzvlərinin razılığı əsasında ilkin yoxlamanın nəticələrinə düzəliş etmək səlahiyyəti verilir.

Tələbənin imtahandan minimum toplayacağı bal 17-dir.

TƏQAÜDLƏRİN VERİLMƏ QAYDALARI

Fənlər üzrə yekun balları 91-100 olan tələbələrə əlaçı təqaüdü verilir.

Bir fəndən 91-100, qalan fənlərdən isə 71-100 bal toplayan tələbəyə həvəsləndirici təqaüdü verilir.

Akademik borcu olmayan, yəni imtahan sessiyasında bütün imtahanlardan 51-100 bal toplayan tələbəyə adi təqaüd verilir.

Tələbənin imtahan sessiyasında akademik borcu qaldığı halda, o, növbəti semestrdə təqaüddən məhrum edilir.

YAY SEMESTRİ

Ali təhsil müəssisələrində yay semestri ildə bir dəfə ödənişli əsaslarla həyata keçirilir. İştirak etmək istəyən tələbə müvafiq fənn üzrə semestrdə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda, o, həmin fənni (fənləri) yay semestrində təkrar dinləmək hüququna malikdir.

YAY SEMESTRİ HANSI HALLARDA TƏŞKİL OLUNUR?

Akademik borcların ləğv edilməsi;

Tədrisində ardıcıllığı gözlənilən fənlər istisna olmaqla tədris planında nəzərdə tutulmuş digər fənlərin ötürülməsi;

Müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi.

BAKI SLAVYAN UNİVERSİTETİ

YAY SEMESTRİ

Yay semestrinin müddəti nəzəri tədris prosesi və yekun qiymətləndirmə mərhələsi (imtahanlar) daxil olmaqla, ümumilikdə 6 təqvim həftəsini əhatə edir. İmtahan müddəti 1 həftədən artıq olmamalı və yay semestrinin sonuncu həftəsinə qədər təşkil olunmalıdır. Tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəmi 10-dan artıq olmamalıdır. Üzrlü səbəbdən semestr imtahanında iştirak etməyən tələbələr üçün növbəti semestr müddəti başlayana qədər bir dəfə yenidən imtahanın təşkil edilməsi imkanı mövcuddur. Müvafiq prosedur və tarixlər ali təhsil müəssisəsinin daxili normativ sənədlərinə uyğun olaraq müəyyənləşdirilir. Tələbənin 1 fənn üzrə kreditinin ödənişi ali məktəbin bütün ixtisaslar üzrə qeyd edilən ildə dövlət sifarişi ilə ayrılmış məbləğin orta qiymətini 60-a (illik kreditin sayına) bölməklə müəyyənləşdirilir.

BAKI SLAVYAN UNİVERSİTETİ

TƏCRÜBƏ İŞİNİN TƏŞKİLİ

Bakı Slavyan Universitetində bakalavriat və magistratura səviyyələri üzrə ixtisasın spesifikasına uyğun olaraq elmi-tədqiqat, elmi-pedaqoji, istehsalat və pedaqoji təcrübələri normativ sənədlərin tələbləri qorunmaqla təşkil olunur. Təcrübənin keçirilməsinə tədris ilinin əvvəlindən başlanılır, müəssisələrə rəsmi müraciətlər ünvanlanır. Təcrübəçilərin gedəcəyi müəssisələr, onların ixtisas üzrə uyğunluğu, həmin müəssisənin infrastrukturu təcrübənin lazımi səviyyədə keçirilməsinə cavab verməsi müəyyən edilir.

İxtisas istiqamətləri üzrə tələbə bölgüsü aparılaraq əmrləşdirilir. Bakalavriat səviyyəsində tədris planlarına uyğun olaraq təcrübənin 8-ci semestrdə (14 həftə) təşkil edilməsi nəzərdə tutulmuşdur.

Tədris planına uyğun olaraq, BSU-nun əməkdaşları elmi-tədqiqat, elmi-pedaqoji, pedaqoji və istehsalat təcrübələrinə rəhbər olaraq təyin olunurlar. Bundan əlavə, təcrübəyə müəssisə tərəfindən də rəhbərlər təyin olunur. Təcrübənin yekununda tələbələr təcrübəyə aid olan bir sıra sənədləri, o cümlədən hesabat və referatlar təqdim edirlər.

BAKI SLAVYAN UNİVERSİTETİ

Slavyanşünaslıq üzrə regionun birinci universiteti

1-ci Tədris Binası



2-ci Tədris Binası

umumi@bsu-uni.edu.az

(+994 12) 599-08-70

Bakı şəh., S.Rüstəm küç. 33